# "ODLAR YURDUNUN ÖVLADLARI..."

## *yazıçı-publisist Ramin Məmmədovun tədqiqatında*

İstəsək də, istəməsək də, XIX-XX əsrlər boyunca Rusiya ilə siyasi, iqtisadi, mədəni həyatımızın əlaqələrini, özü də sıx, qarşılıqlı əlaqələri dana bilmərik. Azərbaycanın mədəni yüksəlişində, xüsusilə Avropaya açılan pəncərəmizdə Rusiyanın mədəni həyatının böyük rolu olub. Yeni dövr ədəbiyyatımızın zənginləşməsi, mədəni yüksəlişimiz üçün Rusiyanın tərəqqipərvər ziyalılarının təsiri danılmazdır. Ona görə də hər hansı bir siyasi kataklizmin (sərt dəyişmələrin) bu əlaqələri qıra bilməsi haqqındakı fikir ağlabatan deyil. Deməli, biz bu əlaqələri öyrənmək, uzun illər ərzində yaranmış ən yaxşı ənənələri yaşatmaq üçün müəyyən səylər göstərməliyik. Buna Azərbaycanın müstəqilliyi, həyatını özünün idarə etməsi daha çox şərait yaradır.

Mən Azərbaycan ziyalılarının, xüsusilə yazıçı və publisistlərin, tarixçi tədqiqatçıların bu yöndəki fəaliyyətlərinə yüksək dəyər verirəm. Əslində, bu əlaqələri öyrənmək elə öz xalqımızın tarixini öyrənmək deməkdir.

Zaman keçdikcə bir çox hadisələr tarixə qovuşur. Xalqımızın taleyi ilə bağlı olan və tarixi əhəmiyyət kəsb edən hadisələri yeni nəsil üçün tədqiq edərək aşkara çıxarmaq sözün həqiqi mənasında milli təəssübkeşlik və vətənsevərlik örnəyidir. Mən əvvəlki yazımda tarixçi-filosof Əbdül Hüseynovun *"Azərbaycanlılar Rusiyanın tarixində"* kitabı ilə bağlı düşüncələrimi oxucularla bölüşmüşdüm. Ancaq indi başqa bir müəllif və onun əsəri haqqında məlumat vermək istəyirəm. Bu, yazıçı-publisist və eyni zamanda Rusiyada Azərbaycan dilli mətbuatın tarixini araşdıran və dəyərli elmi əsəri ilə bu araşdırmalarını monoqrafiya şəklində çap etdirən Ramin Məmmədovdur.

Ramin Məmmədovun çox maraqlı həyat yolu var. O, sovet dövründə məramına uyğun ali təhsil almaq imkanlarını gerçəkləşdirmək üçün Rusiyaya üz tutub. Uzaq Nijnivartovski şəhərində məskunlaşıb, hüquq təhsili alıb. Ali milis məktəbini zabit rütbəsi ilə başa vurub. Eyni zamanda yaşayıb işlədiyi şəhərdə və fəaliyyət göstərdiyi milis orqanlarında yüksək təqdirli işi ilə fərqlənib. Təkcə xidməti sahəsi ilə öz işini bitmiş hesab etməyib. Xidməti işi ilə bərabər jurnalistlik fəaliyyəti də göstərib. Rusiyanın uzaq əyalətindəki qəzet və jurnallarda ardıcıl olaraq publisist yazıları ilə çıxış edib.

Əlbəttə, sonra Qarabağ müharibəsi, sovetlərin dağılması ilə qarşıya çıxan mənəvi-psixoloji problemlər, vətənin dar günündə vətəndə olmaq istəyi onu Azərbaycana qaytarıb. Qarabağ müharibəsinin fəal iştirakçılarından biri kimi erməni vandallarına qarşı döyüşüb. Bakının Qaradağ rayonunda polis orqanlarında işləyərək təqaüdə çıxıb. Ancaq bütün bu vaxt ərzində yazıdan, qələmdən heç vaxt kənarda qalmayıb. Çoxlu kitabları nəşr olunub. İndi Ramin Məmmədovun həyat yolu 65-ci ildönümünə yaxınlaşır. Mən də onun haqqında səmimi qeydlərimlə mənəvi borcumu qaytarmaq istərdim. Əvvəlcə onun səmərəli elmi-publisistik fəaliyyəti ilə bağlı mənbələri araşdırdım. Dostum Əli Rza Xələflinin müvafiq qeydləri kifayət qədər dolğun olduğundan diqqətə çəkirəm: *"Son 25 ilə yaxın zaman ərzində yaradıcılıq fəaliyyətinin tərkib hissəsi kimi, Rusiya bölgələrinə qatarla 40 dəfə yaradıcılıq səfəri edib bu ölkənin 100 şəhərində axtarışlar, araşdırmalar aparmış, oradakı alim, yaradıcı şəxslər, dövlət qulluqçuları, sadə peşə adamları, onların diaspor təşkilatları, diasporumuzun mətbuatı, ədəbiyyatı haqqında rus dilində 27 adda kitab yazıb nəşr etdirmişdir. Sonda bu topluları, tədqiq etdiyi materialları sistemləşdirmiş, rus dilində "Odlar Yurdunun övladları Rusiya tarixində" adlı ensiklopedik portret-oçerklər kitabının üç nəşrini oxucuların mühakiməsinə vermişdir. Topluların nüsxələrini Azərbaycanda və Rusiyada kitabxanalara, redaksiyalara, ayrı-ayrı ziyalılara, elm ocaqlarına özü hədiyyə etmişdir. Qeyd edək ki, müxtəlif elmi məcmuələrdə R.Məmmədovun "Mirzə Kazım bəy: elmi və pedaqoji fəaliyyətinin Kazan dövrü", "Rusiyada Azərbaycan ədəbiyyatı" kimi elmi əsərləri çap edilmişdir. 2018-ci ildə onun 440 səhifəlik "Rusiyada Azərbaycan mətbuatı. Monoqrafiya" adlı elmi əsəri də çapdan çıxmışdır. Təqdirəlayiq haldır ki, kitabda araşdırılan 57 adda qəzet və jurnallar heç bir kitabxanada, arxivdə cəmləşdirilməmiş, müəllif özü səfər etdiyi şəhərlərdə onları bircə-bircə toplamışdır. İndi tam əminliklə demək olar ki, Ramin Məmmədov, qismən də olsa, Rusiyadakı həmvətənlərimizin, onların diaspor təşkilatlarının, mətbuatının və ədəbiyyatının salnaməsini yarada bilmişdir. Bildirməyimiz*



*yerinə düşər ki, "Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Bakinskiy raboçiy", "Vışka", "Azad Azərbaycan", "Şərq", "525-ci qəzet", "Mübariz keşikdə", "Qəbələ", "Qaradağ", "Kredo" və onlarca başqa qəzetlərdə onun bir neçə yüz məqaləsi dərc olunmuş, bu qəzetlərin səhifələrində yaradıcılıq fəaliyyətinə dair yüzdən artıq yazı yerləşdirilmiş, tele-radio verilişlərində çıxışları olmuşdur".* **("Kredo" qəzeti, №47 (1077), 18 noyabr 2021-ci il).** Bu qeydlərdə onun necə fədakar bir ziyalı olduğu tam aydınlığı ilə görünür.

Onu da deyim ki, Ramin Məmmədovun *"Odlar Yurdunun övladları Rusiya tarixində"* kitabı təkrar-təkrar nəşr olunub. Əlbəttə, rus dilində. Bunun da xüsusi əhəmiyyəti var. Axı Rusiyada elə qüvvələr var ki, erməni millətçilərinin təbliğatına uyaraq Azərbaycana qarşı mənfi münasibət bəsləyirlər. Əslində Ramin Məmmədovun kitabı onların necə səhv yolda olduğuna aydınlıq gətirir. Azərbaycanda doğulmuş, Azərbaycanın mənəvi mühitində tərbiyə almış yüzlərlə, bəlkə minlərlə vətən övladı taleyin gətirdiyi qismətlə Rusiyada yaşayıb işləməli olublar. Onlar bu böyük ölkənin çoxsaylı əhalisinin arasında itməyib, əriməyib, öz kimliklərini itirməyiblər. Sözün həqiqi mənasında əsil vicdanla, yüksək əxlaqi dəyərlərlə yaşayıb işləyiblər. Ramin Məmmədovun nəfis şəkildə çap olunmuş *"Odlar yurdunun övladları Rusiyanın tarixində"* kitabının üçüncü nəşrini vərəqləyirəm. 320 səhifəlik kitabın sıx şriftlərlə nəşrini normal şriftə çevirmək lazım gəlsə, bu kitabın 800 səhifəlik olacağını da diqqətdən qaçırmaq istəməzdim. Onu da qeyd edim ki, Ramin Məmmədov orta əsrlərin dərvişsayaq gəzən səyyahları kimi Rusiyanı başdan-başa gəzib. Deməli ki, az-çox nüfuz və hörmət sahibi, dəyərli fəaliyyəti ilə fərqlənən hər bir azərbaycanlı ilə görüşüb, onların həyat yolunu öyrənib. Bircə faktı deyim. Təkcə elə Moskvada 150 nəfərdən çox azərbaycanlının fəaliyyətini öyrənib, onların iş yerlərini görüb, əlaqələri haqqında məlumat toplayıb. Rusiyanın taleyi uğrunda vuruşub əbədiyyətə qovuşmuş Sovet İttifaqı qəhrəmanlarının haqqında da yazıları kitabına daxil edib. Onun yaradıcılıq naminə Azərbaycan diasporunun fəaliyyət göstərdiyi şəhərlərdəki axtarışları az qala bütün Rusiyanın xəritəsini əhatə edir: Tver, Selicarov, İstra, Dedovski, Şelkovo, Kaluqa, Borovski, Nijnivartovski, Ptyax, Tümen, Noyabrski, Nefteyuqanski, Yeni Urenqoy, Xanti Mansiyski, Paykovski, Radujni, Uray, Sovetski, Nyaqan, Federovski, Koqalın, Surqut, Nijni Novqorod, Sarotov, Kirov, Petrozavodski, Perm, Verxnaya Pişma, Sıktıfqar, Usinski, Volqoqrad, Ulyanovski, Yaroslavi, Riyazan, Belqorod, Vronej, Lanqepas, Yekaterinburq, Medion, Kurqan, Tambov, Voloqda, Çerepoves,İvanovo, Taqanroq, Şaxtı, Ayuta... və sırasını tamamlaya bilmədiyim digər şəhərlərdə azərbaycanlı axtarışı onun çox əzablı yollarından xəbər verir. Onu da deyim ki, Ramin Məmmədov Azərbaycan diasporunun fəal tədqiqatçısı kimi mənim Ulyanovskidəki fəaliyyətimi də yaddan çıxarmayıb. Nəfis şəkildə çap olunmuş kitabının 241-242-ci səhifələrini mənim Ulyanovski dövrü fəaliyyətimi əsas götürərək həyat və yaradıcılıq yoluma həsr edib.

Hər bir kitab tarixi sənəddir. Xüsusilə Azərbaycanın tarixi taleyi ilə bağlı olan məsələlərdə belə sənədlər böyük əhəmiyyət kəsb edir. Ona görə də Ramin Məmmədovun həyatımla bağlı qeydlərini də qədrbilənlik örnəyi kimi Rusiya tarixində Odlar Yurdunun övladlarının əməli fəaliyyətləri ilə maraqlanan oxuculardan gizlətmək istəmirəm.

Müəllif ənənəvi olaraq, qısa tərümeyi-hal qeydləri ilə yazısını başlayır və geniş, əhatəli təəssüratlarını oxucularla bölüşür: *"Şəddat Muğdat oğlu Cəfərov, 1940-cı ildə Bakıda anadan olub. O, iqtisad elmləri üzrə fəlsəfə doktoru, "3 saylı Bakı mətbəəsi"nin direktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvüdür. Şəddat müəllimin şərəfli, məhsuldar fəaliyyəti haqqında ilk dəfə, 2002-ci ildə Rusiya bölgələrində yaradıcılıq səfərində olduğum zaman, Ulyanovsk şəhərində eşitmişəm. Ulyanovsk vilayətində çalışan diaspor fəalları, Şəddat Cəfərovla bağlı ağız dolusu danışır, onun nailiyyətlərinə sevindiklərini gizlətmirdilər. Onların söhbətlərindən anladım ki, tanınmış poliqrafçı alim Şəddat Cəfərov 1990-cı ilə kimi Ulyanovsk şəhərində işləmiş, o dövrdə məşhur olan "Ulyanovskaya pravda" nəşriyyatının direktoru kimi rəhbər və vacib bir vəzifədə çalışmışdır. Həmin illərdə, ona böyük etimad göstərilmiş və Ulyanovsk şəhər Xalq Deputatları Sovetinə deputat seçilmişdir. O həm də, kitab nəşri, poliqrafiya və kitab ticarəti İdarəsinin kollegiya üzvü və Vilayət Həmkarlar təşkilatı rəyasət heyətinin üzvü olmuşdur. Yeri gəlmişkən, qeyd edim ki, o həm də Azərbaycanın ilk poliqrafçı alimi kimi məşhurdur. İllər ötdükcə, onun böyük təcrübəsi, elmi və təşkilatçılıq qabiliyyəti Azərbaycanda dövlət səviyyəsində layiqincə qiymətləndirilir – Bakıya işləməyə dəvət olunur".* Ramin Məmmədovun bu qeydlərini mən tarixi xronika xatirinə olduğu kimi təqdim edirəm. Çünki zaman keçdikcə bir çox məsələlər unudulur, yaddan çıxır, amma sənədlər əsasında yazılanlar həqiqi səyyah təəssüratı ilə qələmə alınanlar oxucu yaddaşına həkk olunduğu kimi tarixin də yaddaşına köçürülür.

Əlbəttə, Ramin Məmmədov öz qeydlərində yeri gəldikcə məqsəd və məramını da, əsil vətənpərvər təəssübkeşliyini də təəssüratlarının şahidliyi ilə yazıya gətirir: *"Taleyi Rusiya ilə bağlı olan alim, ictimai xadim və digər qabaqcıl soydaşlarımızın, onların diaspor təşkilatlarının, təsis etdikləri qəzet və jurnalların, ədəbiyyatının tədqiqi ilə məşğul olan qələm sahibi kimi, böyük xidmətləri olan və son dərəcə hörmətli həmyerlimiz haqqında öz kitablarımda yazmaq istəyirdim. Nəhayət, bu istəyimi həyata keçirə bildim. Tanınmış publisist Dilman Musayevin "Nəcib işə həsr olunmuş ömür" sərlövhəli materialı da bu məqaləni yazmaqda mənə yardımçı oldu. Həmin qeydlərdən Şəddat Cəfərovun parlaq həyat yoluna dair məlumatlar əldə etdim. Dilman Musayev yazır: "1955-ci ildə Bakıda, 44 saylı orta məktəbdə Şəddat yeddinci sinfi bitirir və 26 Bakı komissarları adına mətbəəyə (indi şəhər 1 saylı mətbəəsi) sinkoqraf (mətbəə çapı üçün sink klişe hazırlama üsulu) şagirdi kimi işə qəbul olunur. Yanaşı olaraq axşam fəhlə-gənclər məktəbində orta təhsilini davam etdirir. 1959-1962-ci illərdə həqiqi hərbi xidmətdəykən kiçik komandir heyəti hazırlayan kurslara göndərilir, təlimləri başa vurduqdan sonra serjant rütbəsində xidmətini davam etdirir; o, qeyri-adi çalışqanlığını, qabiliyyətini, savadını göstərir, bu keyfiyyətləri nəzərə alınaraq, gənc Şəddat təqdimatla hərbi məktəbə göndərilir və oranı bitirdikdə ona kiçik leytenant rütbəsi verilir. Silahlı Qüvvələrdən tərxis edildikdən sonra həmin müəssisəyə, doğma iş yerinə qayıdır, oyucu (rezçik) peşəsi üzrə əmək fəaliyyətini davam etdirir. Uğurlu əməyinə, savadına və təşkilatçılıq qabiliyyətinə görə, sonralar sex ustası, texnoloq, sex rəisi vəzifələrinə irəli çəkilir, 1966-cı ildə isə mətbəənin baş mühəndisi vəzifəsi ona tapşırılır. O, istehsalatda həmişə yenilik axtarır, mütərəqqi ideyalara meyillənir, sevimli ixtisası üzrə təhsilini artırmaq haqqında düşünür...".* Bu qeydləri oxuduqca həyatımın keçmiş dövrləri mənim yaddaşımda canlanır. Düşünürəm ki, həqiqətən heç nəyin unudulmadığı, heç kimin yaddan çıxmadığı haqqında insanların tarixi qənaətləri həqiqətə söykənir. İnsan həyatı nə vaxt dəyərli olur? Birinci növbədə, hər kəsin həyatının dəyəri onun əməli fəaliyyətinin dəyəri ilə ölçülür. Mən istər Rusiyada çalışarkən, istərsə də, Rusiyanın ayrı-ayrı universitetlərində oxuduğum mühazirələrdə, keçirdiyim görüşlərdə azərbaycanlı olduğumu heç vaxt unutmadım. Mənim bir sözüm var, həmişə deyirəm ki, hər kəs vətənindən uzaqda elə vətəninin bir parçasıdır. Gərək hər kəs vətən naminə çalışmaları ilə öz həyatını mənalandıra bilsin.

R.Məmmədovun bu qeydlərində mənim diqqətimi çəkən bir məqamı unuda bilmirəm. Müəllif Ulyanovski şəhərində yaşayan azərbaycanlılarla görüşərkən, onlar mənim haqqımda ağızdolusu danışıblar. İnsan üçün bundan üstün fərəh yoxdur. Yazıçı-publisist R.Məmmədovun özünün fədakar yaradıcı olmağı da onun həqiqi azərbaycanlı simasından xəbər verir.

***(Davamı var)***

***Şəddat CƏFƏROV***